# HEYDƏR ƏLİYEV İRSİNDƏ KİTAB MƏDƏNİYYƏTİNİN ROLU VƏ ƏHƏMİYYƏTİ

**_Səadət Yolçu qızı Məmmədova_**

*AMEA Mərkəzi Elmi Kitabxana,*
*kitabxanaçı*
*Yasamal rayonu, Hüseyn Cavid pros.129*
*seadetmemmedova699@gmail.com*
*Orcid: 0000-0002-6191-8814*

**_Açar sözlər:_** *Heydər Əliyev və təhsil, milli dəyərlər, maarifçilik, ictimai şüurun formalaşması*

**_Ключевые слова:_** *Гейдар Алиев и образование, национальные ценности, просвещение, формирование общественного сознания*

**_Keywords:_** *Heydar Aliyev and education, national values, enlightenment, formation of public consciousness*

**Xülasə:** Heydər Əliyev şəxsiyyəti müasir Azərbaycan tarixində təkcə siyasi lider kimi deyil, həm də milli-mənəvi dəyərlərin qoruyucusu və maarifçilik ideyalarının daşıyıcısı kimi mühüm yer tutur. Onun rəhbərliyi dövründə təhsilin inkişafı, milli dəyərlərin təbliği və cəmiyyətin intellektual potensialının gücləndirilməsi istiqamətində atılan addımlar, Azərbaycan xalqının gələcək inkişaf strategiyasını formalaşdırmışdır. Ulu öndər təhsili ölkənin tərəqqisinin əsas dayağı hesab edərək bu sahənin sistemli şəkildə inkişafına xüsusi önəm vermişdir.

Maarifçilik ənənələrinin davam etdirilməsi, gənc nəslin milli ruhda tərbiyə olunması və ictimai şüurun yüksəldilməsi Heydər Əliyevin siyasətində başlıca istiqamətlərdən biri olmuşdur. Onun təşəbbüsü ilə həyata keçirilən islahatlar nəticəsində Azərbaycan cəmiyyətində elmə, təhsilə və kitaba olan maraq artmış, milli-mənəvi dəyərlərə söykənən təhsil modeli formalaşmışdır. Bu baxımdan, Heydər Əliyevin irsi təkcə siyasi deyil, həm də maarifçi və mədəni bir xəzinədir.

**Резюме:** Гейдар Алиев занимает ключевое место в современной истории Азербайджана не только как политический лидер, но и как хранитель национально-нравственных ценностей и носитель идей просвещения. В период его руководства были предприняты значительные шаги по развитию системы образования, пропаганде национальных ценностей и укреплению интеллектуального потенциала общества, которые в значительной мере сформировали стратегию дальнейшего развития азербайджанского народа. Великий лидер рассматривал образование как фундамент прогресса страны и уделял особое внимание его системному развитию. Продолжение традиций просвещения, воспитание молодого поколения в духе национального самосознания и повышение уровня общественного сознания стали приоритетными направлениями его политики.

Благодаря реализованным по инициативе Гейдара Алиева реформам в азербайджанском обществе значительно возрос интерес к науке, образованию и книге, а также была сформирована образовательная модель, основанная на национально-нравственных ценностях. В этом контексте наследие Гейдара Алиева представляет собой не только политическое, но и просветительское и культурное достояние страны.

**Summary:** Heydar Aliyev's personality holds an important place in the modern history of Azerbaijan, not only as a political leader but also as a guardian of national-spiritual values and a carrier of the ideas of enlightenment. During his leadership, the steps taken towards the development of education, the promotion of national values, and the strengthening of the intellectual potential of society shaped the future development strategy of the Azerbaijani people. The Great Leader considered edu-

cation to be the main pillar of the country's progress and attached special importance to the systematic development of this field.

The continuation of the traditions of enlightenment, the education of the younger generation in the national spirit, and the elevation of public consciousness became one of the main directions of Heydar Aliyev’s policy. As a result of the reforms initiated by him, interest in science, education, and books grew in Azerbaijani society, and an educational model based on national-spiritual values was formed. In this regard, Heydar Aliyev’s legacy is not only political but also an enlightened and cultural treasure.

Heydər Əliyev, Azərbaycan xalqının dövlətçilik hissini, mədəni birlik anlayışını, özünüdərkini və milli mənlik şüurunu daha da möhkəmləndirirdi.

Heydər Əliyevin dahi bir şəxsiyyət kimi Azərbaycan tarixində oynadığı rol təkcə ictimai-siyasi əhəmiyyət daşımır. Onun hakimiyyəti illərində milli-mənəvi dəyərlərimizin mühafizəsi və təbliği, mədəniyyətimizin inkişafı və dünya səviyyəsində tanıdılması, həmçinin bu sahədə çalışan mütəxəssislərin fəaliyyətinin və istedadının dəyərləndirilməsi istiqamətində də böyük işlər görülmüşdür. Məhz onun qayğısı və diqqəti sayəsində mədəniyyətin qorunması, zənginləşdirilməsi və inkişafı üçün əhəmiyyətli tədbirlər həyata keçirilmişdir.

Dahi şəxsiyyət çıxışlarının birində demişdir: “Kitabxana xalq üçün, millət üçün, cəmiyyət üçün müqəddəs bir yer, mənəviyyat, bilik, zəka mənbəyidir. Ona görə də kitabxanaya daimi hörmət xalqımızın mədəniyyətini nümayiş etdirən amillərdən biridir!” [9, s.42]. Bu fikrə əsaslanaraq, kitabxanaların xalq və millət üçün vacib bir mədəniyyət amili, bilik və mənəviyyat mənbəyi olduğunu söyləyə bilərik. Kitabxanalar cəmiyyətin dəyərlərini qoruyan, zəka və mədəniyyətin inkişafını dəstəkləyən müqəddəs məkanlardır. Onlara olan hörmət və diqqət, bir millətin mədəniyyətinə və inkişafına verilən ən yüksək qiymətdir.

Heydər Əliyev kitabları və mütaliəni çox sevirdi. O, hər zaman çıxışlarında gəncləri mütaliə etməyə, tez-tez kitabxanalara getməyi tövsiyə edərdi.

Ümummilli lider digər bir çıxışında demişdir: “Kitab nəşri hər bir ölkənin, xalqın mədəniyyətində, ümumiyyətlə mənəvi, ictimai həyatında çox görkəmli yer tutur. Hər birimiz, ilk növbədə, ancaq kitab vasitəsi ilə təhsil almış elmlərə yiyələnmiş, həyatda yaşamağa fəaliyyət göstərməyə hazırlaşmışıq. Ona görə də hər birimiz kitablara borcluyuq. Həm kitabları yazıb-yaratmaq, həm də onları nəşr etmək əsas vəzifələrimizdən biridir. Bunun üçün mümkün olan bütün tədbirləri görməliyik. Mən respublikamızın prezidenti kimi bunu əsas vəzifələrimdən biri sayıram” [9, s .45].

Ümummilli liderin bu çıxışı kitabın cəmiyyət həyatında oynadığı çoxşaxəli və əvəzolunmaz rolunu dərin şəkildə izah edir. Kitab yalnız şəxsi inkişaf vasitəsi deyil, həm də milli və ictimai tərəqqinin əsas dayağıdır. Kitabın yazılması, nəşri və yayılması həm ziyalıların, həm də dövlətin prioritet vəzifələrindən sayılır. Kitaba göstərilən dəyər, əslində, gələcəyə, elmə, təhsilə və milli kimliyə verilən dəyərdir. Buna görə də bu sahədə aparılan hər bir iş cəmiyyətin inkişafına yönəlmiş böyük bir xidmət kimi qiymətləndirilməlidir.

Dahi şəxsiyyət 1995-ci ildə öz şəxsi kitabı olan “Qurani-Kərim” kitabını Milli Kitabxanaya təqdim edərkən, qeyd etmişdir ki: “Kitabxana elə bir yerdir ki, gərək daim onun fondu genişləndirilsin. Çünki dünya dəyişir, yeni əsərlər, kitablar yaranır, bunlar insanlara yeni biliklər, yeni məlumatlar gətirir. Ona görə də gərək bizim bu mərkəzi kitabxanamız daim yeni-yeni nəşrlərlə təmin olunsun”.

Kitabxanalar yalnız ötən dövrlərin məlumatlarını qorumaq üçün deyil, həm də müasir dövrün elmi və mədəni inkişafını əks etdirmək, insanlara yeni biliklər və məlumatlar təqdim etmək üçün daim yenilənməli və genişlənməlidir. Bu, həm də cəmiyyətin inkişafına, müasir tendensiyalara uyğun təhsil sisteminin gücləndirilməsinə xidmət edir.

Dünya və cəmiyyət daim dəyişir, yeni elmi kəşflər və sosial inkişaflar baş verir. Bu inkişafları izləmək və cəmiyyətə təqdim etmək üçün kitabxanaların yenilənməsi və müasir nəşrlərlə zənginləş-

dirilməsi vacibdir. Həmçinin, yeniliklərə açıq olmaq və bu dəyişikliklərə uyğunlaşmaq kitabxanaların davamlı əhəmiyyətini təmin edir.

Kitabxanaların fondu genişləndikcə, insanlara daha çox resurs təqdim olunur. Yeni nəşrlər və müasir məlumatlar cəmiyyətin inkişafına təsir edir, fərdlərin intellektual inkişafını dəstəkləyir və onları dünyada baş verən yeniliklərdən xəbərdar edir. Kitabxanaların davamlı şəkildə genişlənməsi, təhsil və mədəniyyətin inkişafını təmin edir, elmi tədqiqatların dəstəklənməsinə imkan verir. Bu, cəmiyyətin inkişafına və insanların dünyagörüşünün genişlənməsinə müsbət təsir göstərir.

Kitabda ilk dəfə olaraq Azərbaycanda kitabxana işinin və bu sahəyə dövlət qayğısının elmi-metodoloji əsasları, qanunvercilik təminatı və strategiyası öz elmi-nəzəri həllini tapmış, əhaliyə müasir kitabxana və informasiya xidmətinin təşkili problemləri təhlil edilmişdir.

Professor Abuzər Xələfov yazır: "Müasir kitabxanaçı klassik kitabxanaçılıqda olan bütün ətaləti, baryerləri qırmağı bacarmalı, cəmiyyətin inkişaf sürəti ilə ayaqlaşmağı, yeni-yeni elmi fənlərə xüsusilə əsaslı elmi biliklərə yiyələnməyi, hesablama texnikası və kompüterlərlə işləməyi öyrənməlidir" [6, s.153]. Professor Abuzər Xələfovun bu fikri müasir dövrdə kitabxanaçılıq peşəsinin təkcə kitablarla işləməkdən ibarət olmadığını vurğulayır.

Müasir kitabxanaçı sadəcə ənənəvi və passiv informasiya mühafizəçisi olmamalıdır. O, daim dəyişən və sürətlə inkişaf edən informasiya cəmiyyətinə uyğunlaşmağı bacarmalıdır. Yəni kitabxanaçı cəmiyyətin informasiya ehtiyaclarını qabaqcadan görə bilməli, yeni texnologiyalarla işləməyə açıq olmalı və müxtəlif elm sahələri üzrə əsaslı biliklərə sahib olmalıdır. Bu, həm informasiya texnologiyaları (kompüter bilikləri, rəqəmsallaşdırma, verilənlər bazaları ilə işləmək və s.), həm də sosial və humanitar elmlər sahəsində ola bilər. Kitabxanaçının üzərinə düşən vəzifə yalnız kitab saxlamaq deyil, həm də informasiya idarəçiliyi, təhlili və çatdırılması ilə bağlıdır.

Müasir kitabxanaçı daim öyrənməli, çevik olmalı və ənənəvi metodlardan kənara çıxaraq innovativ yanaşmalar axtarmalıdır. Onun rolu artıq yalnız məlumat mənbəyi təqdim etmək deyil, eyni zamanda cəmiyyətin informasiya savadlılığını artırmaq, fərqli istifadəçi qruplarına uyğun xidmətlər göstərməkdir.

Bütün dünyada, o cümlədən Azərbaycanda regional kitabxanalar ümumi kitabxana şəbəkələri içərisində mühüm yer tutur. Ona görə də bu kitabxana-informasiya orqanlarının əsas missiyası, yerləşmə xüsusiyyətləri, onların informasiya ehtiyyatları və bu ehtiyyatlardan yerli əhalinin səmərəli istifadəsinin təşkili problemlərinin araşdırılması kitabxanaşünaslığın müstəqil istiqaməti kimi mühüm əhəmiyyət kəsb edir. Bu baxımdan şəhərlərdə yerləşən kütləvi kitabxanalar Azərbaycan mədəniyyətinin atributu kimi formalaşmış, əhalinin informasiya təminatının mərkəzlərindən biri kimi mühüm işlər görürlər.

**Nəticə:** Əsası Ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş dövlətçilik ideologiyasında kitab mədəniyyəti təkcə mədəni sərvət kimi deyil, eyni zamanda cəmiyyətin mənəvi və intellektual inkişafının əsas dayaqlarından biri kimi dəyərləndirilmişdir. Onun fəaliyyətində təhsilin və maarifçiliyin prioritet sahə kimi seçilməsi təsadüfi deyildi. Heydər Əliyev inanırdı ki, xalqın tərəqqisi savadlı, milli dəyərlərə sadiq və dünyagörüşlü vətəndaşların yetişməsi ilə mümkündür. Bu baxımdan, kitab cəmiyyət üçün bilik mənbəyi olmaqla yanaşı, həm də mənəvi tərbiyə vasitəsi rolunu oynayırdı.

Milli dəyərlərin qorunması və təbliğində kitabların rolu xüsusi vurğulanmalı bir sahədir. Heydər Əliyev dönəmində klassik ədəbiyyat nümunələrinin yenidən nəşr olunması, xalq ədəbiyyatının toplanması və yeni nəsil üçün əlçatan hala gətirilməsi məhz bu strategiyanın bir hissəsi idi. Bu yanaşma həm də milli kimliyin möhkəmləndirilməsinə, dilin və tariximizin daha geniş təbliğinə zəmin yaradırdı.

Maarifçilik ənənəsinin dirçəldilməsi də Heydər Əliyev siyasətinin mühüm istiqamətlərindən biri olmuşdur. O, təhsilin bütün pillələrinin inkişafına, kitabxanaların yenilənməsinə, müəlliflərin və ziyalıların dəstəklənməsinə xüsusi diqqət ayırmışdır. Bu yanaşma kitab mədəniyyətini yalnız bir oxu vərdişi olaraq deyil, bütövlükdə ictimai şüurun formalaşmasında əsas vasitə kimi təsbit edirdi.

Nəticə etibarilə, Heydər Əliyev irsində kitab mədəniyyəti maarifçilik, milli dəyərlərin qorunması və təbliği, gənc nəslin və bütövlükdə cəmiyyətin intellektual inkişafı baxımından mühüm strateji alət kimi dəyərləndirilmişdir. Onun bu istiqamətdə gördüyü işlər bu gün də aktualdır və müasir Azərbaycan cəmiyyətinin inkişafında öz təsirini göstərməkdədir.

**Ədəbiyyat**


1. *Əhmədova. L.* Heydər Əliyev irsinin kitabxanalarda təbliği: metodik vəsait / AR Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Milli Kitabxanası.- Bakı : [s. n.], 2018. - 54 s.
2. *Əliyev. M*; tərt.ed. S. Məmmədova. Heydər Əliyev irsinin kitabxanalarda tədqiqi və təbliği : elmi kitabxanalar üçün metodik vəsait / AMEA Mərkəzi Elmi Kitabxana.- Bakı : Elm, 2023. - 112 s.
3. *Əliyeva. M. İ.* Məmmədzadə ; red. E. Mədətli ; tərt..Heydər Əliyevin siyasi irsi və Azərbaycançılıq. - Текст : непосредственный. / AMEA Fəlsəfə və Sosiologiya İn-tu ; elmi red - Bakı : Elm və təhsil, 2023. - 408 s.
4. *Xələfov A*. Heydər Əliyev və Azərbaycanda kitabxana işi / - Bakı : Azərnəşr, 2006. - 312 s.
5. *Xələfov A*. Kitabxanaşünaslığın tarixi və metodologiyası : dərslik - [Б. м.] : Bakı Universiteti nəşriyyatı, 2014. - 552 s.
6. *Xələfov A*. red. K. Aslan. Söz, kitab, mütaliə, kitabxana və kitabxanaçı haqqında müdrik fikirlər / - Bakı : Mütərcim , 2014. - 188 s.
7. *Kərimli T.* red. C. Cəfərov ; elmi məs. İ. Həbibbəyli. Heydər Əliyev və klassik irs; AMEA Məhəmməd Füzuli adına Əlyazmalar institutu. - Bakı : Elm və təhsil, 2023. - 188 s.
8. *Süleymanov R*. elmi red. K. Aslan Ulu Öndər Heydər Əliyev və Azərbaycanın kitab mədəniyyəti : monoqrafiya / Bakı Dövlət Un-ti. - ikinci nəşr. - Bakı : Füyuzat, 2023. - 364 s.
9. *Tahirov K*.; elmi red. Ə. İsmayılova Heydər Əliyev və Milli Kitabxana /Azərbaycan Milli Kitabxanası . - Bakı : Şərq-Qərb, 2022. - 180 s.
10. *Umudlu İ*. Kitab nəşri bu gün (Azərbaycanda kitab nəşrinin monitorinqi) / - Bakı: Əbilov, Zeynalov və oğulları, 2004. - 322 s.
11. *V. Əhməd* . Heydər Əliyev və milli mətbuat / AMEA Nizami Gəncəvi ad. Ədəb. İn-tu ; - Bakı : Elm və təhsil, 2023. - 320 s.